Bayramov, V. İkinci Qarabağ müharibəsi Azərbaycanın qəhrəmanlıq tarixidir / Vaqif Bayramov // Xalq qəzeti. - 2021. - 23 sentyabr. - № 203. - S. 1-2.

Biz ərazi bütövlüyümüzü bərpa etmişik. Biz qələbə qazanmışıq. Bizim bu gün gündəlikdə duran hər hansı başqa bir məsələmiz yoxdur. Biz öz sərhədlərimizə çıxmışıq, Ermənistan–Azərbaycan sərhədini nəzarətə almışıq. Biz artıq quruculuq işlərinə başlamışıq…
İlham ƏLİYEV
Azərbaycan Respublikasının Prezidenti

Ermənilər tərəfindən xalqımıza qarşı uzun illər ərzində aparılan düşmənçilik siyasəti dəfələrlə regionda faciəli hadisələrə səbəb olmuşdur. Onların əzəli Azərbaycan torpağı olan Qarabağa köçürüldükləri vaxtdan başlayaraq soydaşlarımıza yönələn etnik dözümsüzlüyü indi də özünü qabarıq büruzə verir. Qəsbkar ölkə İkinci Qarabağ müharibəsində haqq-ədalət qarşısında məğlub olsa da, yenə də dinc dayanmır, revanşist fikirlər səsləndirir, işğalçı əməllərdən çəkinməyəcəyini gizlətmir.

Ümumiyyətlə, ermənilər Qarabağ bölgəsində məskunlaşdıqları ilk gündən Azərbaycan toponimlərini dəyişməyə başlayıb, münbit əraziləri ələ keçirməyə çalışıb, əksəriyyət təşkil etdikləri yaşayış məntəqələrində azərbaycanlıları sıxışdırıblar. Azərbaycanın qonşuluğunda baş verən inqilabların yaratdığı şəraitdən sui-istifadə edərək qəsbkarlar 1905–1907-ci və 1918-ci illərdə yüz minlərlə soydaşımızı vəhşicəsinə qətlə yetiriblər. 1918–1920-ci illər isə xalqımızın yaddaşında erməni silahlı quldur dəstələrinin xüsusi qəddarlığı ilə yadda qalıb. Həmin illərdə İrəvan, Dərələyəz, Zəngəzur, Göyçə, Tiflis, Naxçıvan, Bakı, Gəncə, Şamaxı, Quba, Lənkəran, Qarabağ, Muğan və Göyçayda on minlərlə dinc azərbaycanlı əhali soyqırımına məruz qalıb, yaşadıqları yerlərdən qovulub, onlara işgəncələr verilib, yüzlərlə yaşayış məntəqəsi dağıdılaraq, yerlə yeksan edilib.

Azərbaycanlıların öz tarixi-etnik torpaqlarından qovulması sovet dövründə də həyata keçirilib. Belə ki, 1948-1953-cü illərdə Ermənistandakı öz tarixi dədə-baba torpaqlarından 150 min azərbaycanlı deportasiya olunaraq, Azərbaycanın Kür-Araz düzənliyində yerləşdirilib. Həmçinin 1988-ci ildə daha 250 min azərbaycanlı öz doğma yurdundan qovulub, bununla da Ermənistan monoetnik dövlətə çevrilib.

Onu da qeyd edək ki, 1988-ci ildə başlayan Qarabağ hadisələri, erməni ideoloqlarının "Dənizdən-dənizə Ermənistan" adlı sərsəm ideyasını reallaşdırmaq cəhdləri kənd və şəhərlərimizin dağılması, on minlərə günahsız insanın ölümü, yüz minlərlə azərbaycanlının öz tarixi torpaqlarından didərgin düşməsi ilə nəticələnib.

Ermənilərin tarixi ərazilərimizdə həyata keçirdikləri soyqırımı siyasətinə ilk dəfə ümummilli lider Heydər Əliyev tərəfindən siyasi-hüquqi qiymət verilib. Ulu öndərin 1998-ci ildə imzaladığı müvafiq fərmanla 31 mart tarixi Azərbaycanlıların Soyqırımı Günü elan edilib.

Birinci Qarabağ müharibəsi zamanı xarici havadarları tərəfindən silahlandırılan ermənilər tərəfindən Azərbaycan ərazisinin 20 faizi işğal edilib. İşğal zamanı yaşayış məntəqələri dağıdılaraq, əhalisi amansızcasına qətlə yetirilib. Başlıbel, Ağdaban və Baqanis-Ayrım kəndlərində törədilən vəhşiliklər erməni faşizminin əsl simasını göstərib.
Dinc azərbaycanlılara qarşı törədilən qətliamlar sırasında Xocalı faciəsi xüsusi qəddarlığı ilə seçilir. 1992-ci il fevralın 26-da Ermənistan hərbi birləşmələri tərəfindən 7 min əhalisi olan Xocalı şəhərində soyqırımı həyata keçirilib. Soyqırımı zamanı 613 nəfər, o cümlədən, 106 qadın, 63 azyaşlı uşaq, 70 qoca öldürülüb, 8 ailə tamamilə məhv edilib, 25 uşaq hər iki valideynini, 130 nəfər valideynlərindən birini itirib, min nəfər müxtəlif yaşlı dinc sakin aldığı güllə yarasından əlil olub. Soyqırımı baş verən gecə 1275 nəfər dinc sakin girov götürülüb və onlardan 150-sinin taleyi indi də məlum deyil. Bütövlükdə, Azərbaycan xalqına qarşı yönəldilən Xocalı soyqırımı öz ağlasığmaz qəddarlığı və qeyri-insani cəza üsulları ilə bəşər tarixində bir vəhşilik aktıdır. Bu soyqırımı, eyni zamanda, bütün bəşəriyyətə qarşı cinayətdir.
Yaranan münaqişənin nizamlanması üçün 24 mart 1992-ci ildə təsis olunan ATƏT-n Minsk Qrupu fəaliyyətinin 29 ili ərzində məsələnin həllinə yox, dondurulmasına çalışıb və bununla da illər ərzində aparılan danışıqlar nəticəsiz qalıb. Həm işğalçıya, həm də işğala məruz qalan tərəfə eyni münasibət bəslənilib və beynəlxalq qətnamələr kağız üzərində saxlanılıb. Məsuliyyətli ölkə olaraq Azərbaycan daim beynəlxalq hüquqa sadiqliyini nümayiş etdirərək, münaqişənin danışıqlar vasitəsilə həllinə çalışıb. Digər bir mötəbər beynəlxalq təşkilat olan BMT də işğalçı Ermənistana təzyiq göstərməkdə acizlik nümayiş etdirib, tərəfləri sülhə çağıran bəyanatlarla kifayətlənib. BMT Təhlükəsizlik Şurasının Ermənistan silahlı qüvvələrinin işğal altındakı Azərbaycan ərazilərindən dərhal çıxarılmasını tələb edən 4 qətnaməsi 27 il icra olunmayıb.
Bütün bu illər ərzində Ermənistan işğalçı siyasətini davam etdirərək, ərazilərimizdə təxribatlar törədib, təmas xətti boyunca yaşayan dinc əhalimizə mütəmadi atəş açaraq, onların rahat yaşamasına imkan verməyib.
Fikrimizin təsdiqi olaraq, diqqəti bəzi faktlara yönəltmək istərdik. Belə ki, 2016-cı ilin aprelində Lələtəpə və 2020-ci ilin iyulunda Tovuz döyüşləri zamanı Azərbaycan bu işğalla barışmayacağını nümayiş etdirdi. Lakin Ermənistan bu döyüşlərdən də nəticə çıxarmayaraq Azərbaycana qarşı diversiyaları davam etdirib, erməni siyasətçiləri tərəfindən aşağılayacı və təxribatçı bəyanatlar verildi. 2020-ci il sentyabrın 27-də isə Ermənistan tərəfindən növbəti hərbi təxribat törədilərək, Azərbaycanın yaşayış məntəqələri və döyüş mövqeləri şiddətli artilleriya atəşinə tutuldu. Nəticədə hərbi qulluqçularla yanaşı, Azərbaycanın 11 dinc sakini, o cümlədən, 2 uşaq həlak oldu. Düşmənin hərbi təxribatını dəf etmək və təcavüzünə son qoymaq məqsədilə Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev dərhal bütün cəbhə boyu əks-hücuma keçmək əmri verdi. Beləliklə, Vətən müharibəsi başladı. Ali Baş Komandanın rəhbərliyi ilə Azərbaycan Ordusu 44 günlük savaşda ölkəmizin ərazi bütövlüyünü, tarixi ədaləti, beynəlxalq hüququ bərpa etdi.

Ermənistan silahlı qüvvələrinin Azərbaycan torpaqlarını işğal etməsi azərbaycanlıları doğma yurd-yuvalarından didərgin salmaqla yanaşı, ölkəmizin iqtisadiyyatına və mədəni irsinə də ağır zərbə vurub. Bir milyondan çox azərbaycanlı 30 il ərzində qaçqın və məcburi köçkün həyatı sürməyə məcbur olub. Ermənistan bu müddət ərzində işğal altında saxladığı Azərbaycan ərazilərini acınacaqlı vəziyyətə salaraq, şəhər və kəndlərimizdə infrastrukturu tamamilə məhv edib, Azərbaycana milyardlarla dollar dəyərində maddi ziyan vurub.
Vətən müharibəsinin gedişində Ermənistanın havadarları tərəfindən müxtəlif yollarla Azərbaycanı haqq savaşından çəkindirməyə, xalqımızın ədalət uğurunda mübarizəsini dayandırmağa cəhd göstərilirdi. Lakin bütün təzyiqlərə, təhdidlərə baxmayaraq, Azərbaycan öz torpaqlarında ədalətin bərpa olunması üçün hərbi əməliyyatlarını davam etdirdi.
Ordumuzun döyüş meydanında qələbəsi ilə yekunlaşan ötən hər bir gün Prezident İlham Əliyev də diplomatik cəbhədə inamla döyüşür, ölkəmizə qarşı beynəlxalq təzyiqlərin qarşısını peşəkarlıqla, qətiyyətlə alırdı. “Biz əsgərlərimizin, zabitlərimizin canı-qanı bahasına bu torpaqları azad edirik. Həm döyüş meydanında, həm siyasi müstəvidə özümüzü təsdiqləmişik, dünyaya təsdiqləmişik. Azərbaycan xalqını qürurlu xalq kimi, cəsarətli xalq kimi, yenilməz xalq kimi təsdiqləmişik. Heç bir təzyiq bizə təsir edə bilməz. Heç bir hədə-qorxu bizi yolumuzdan döndərə bilməz. Çünki haqq yolundayıq, yumruq kimi birik. Bu birlik əbədidir və əbədi olacaq!” – deyə Prezident İlham Əliyev bildirirdi.
Azərbaycan döyüş əməliyyatları zamanı haqqa, ədalətə söykəndi, beynəlxalq konvensiyalara əsaslandı. Ermənistan isə uğursuzluqdan isterikaya düşərək Azərbaycanın döyüş bölgəsində yerləşməyən rayon və şəhərlərində dinc əhalini, qadınları və uşaqları raket və artilleriya zərbələri ilə atəşə tutdu. Lakin buna baxmayaraq, Azərbaycan Ordusu düşmənin yalnız hərbi obyektlərini hədəfə aldı, hətta mülki əhalinin ziyan görməməsi üçün onları bu cür obyektlərdən uzaq durmağa çağırdı.
Vətən müharibəsində apardığımız azadlıq mübarizəsi zamanı silah-sursatını qoyub qaçan, fərarilik edən işğalçı Ermənistan ordusuna məxsus xeyli texnika və silah-sursat hərbi qənimət olaraq götürüldü, bir hissəsi isə məhv edildi. Zəfər paradında Bakının Azadlıq meydanından keçən hərbi texnikaların sırasında vaxtilə işğalçının istifadəsində olan yararlı və yararsız texnikaların da yer alması sevindirici məqam idi. Bu, milli qürur və iftixar hissi doğururdu.
Bəli, Azərbaycan Ordusu 44 günlük müharibədə zəfər yazdı, parlaq qələbə əldə etdi. Bu, təsadüfi deyildi. Çünki silahlı qüvvələrimiz uzun illərdi ki, bu savaşa hazırlaşırdı, gündən-günə döyüş qabiliyyətini gücləndirirdi.
Ordumuz tərəfindən aparılan bütün əks-hücum əməliyyatlarının ən böyük nəticələrindən biri o oldu ki, silahlı qüvvələrimiz mənəvi-psixoloji, döyüş ruhu, sosial, ictimai, texniki-təchizat, silah-sursat, peşəkarlıq baxımından Ermənistan ordusunu müqayisəolunmaz dərəcədə qabaqladığını təsdiqlədi və təbii ki, düşmən də bu üstünlüyü tam anladı. Erməni ictimaiyyəti bu prosesdə gerilədiyini, uduzduğunu öz üzərində açıq-aydın hiss etdi.
Prezident İlham Əliyev 2003-cü ildə qarşıya qoyduğu və bəyan etdiyi strateji hədəfləri gerçəkləşdirmək üçün ötən müddətdə istər beynəlxalq miqyasda, istərsə də ölkə daxilində

məqsədyönlü, ardıcıl, düşünülmüş siyasət həyata keçirdi və "güclü dövlət" konsepsiyasını reallaşdırmağa nail oldu. Bununla da dövlətimizin başçısı qurucu, birləşdirici, Azərbaycan xalqının bütün istək və arzularını reallaşdıran, öz fəaliyyətində Azərbaycan dövlətinin maraqlarını ən ali məqsəd kimi görən və bütün qüvvəsini bu istiqamətə yönəldən, xalqın birmənalı şəkildə dəstəklədiyi, etimad göstərdiyi liderə çevrildi.
Beləliklə, dövlətimizin başçısı 2020-ci ildə Azərbaycanın ərazi bütövlüyünü bərpa edən lider kimi adını əbədi olaraq tarixə yazdırdı, Azərbaycan xalqının qəhrəmanlıq salnaməsini yaratdı və 44 günlük Vətən müharibəsinin əsl qəhrəmanına çevrildi.
Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə ordumuz 44 gün davam edən müharibədə möhtəşəm qələbə qazanaraq, dünya hərb tarixinə yeni şanlı səhifələr yazdı. Silahlı qüvvələrimiz döyüş meydanında Ermənistanın "güclü, məğlubedilməz" ordu mifini birdəfəlik darmadağın etdi.
Azərbaycan Ordusunun nəyə qadir olduğunu isə əməliyyatların zirvəsində gələn Şuşa savaşı göstərdi. Yeri gəlmişkən, Vətən müharibəsində silahlı qüvvələrimizin cənub istiqamətində irəliləyişləri inkişaf etmiş texnologiyalardan peşəkar istifadə, rəhbərliyin düzgün planlaşdırması nəticəsində həyata keçirilmişdisə, Şuşada bunun üzərinə heyətin şəxsi peşəkarlığı amili də əlavə olundu. Ümumiyyətlə, Azərbaycanın Vətən müharibəsi müasir döyüş tarixində tamamilə yeni bir səhifənin əsasını qoydu. İyunun 15-də Şuşa Bəyannaməsinin imzalanmasından sonra Prezident İlham Əliyev bəyanatında bununla bağlı deyib: "Şuşa şəhəri işğaldan keçən il noyabrın 8-də azad edilmişdir. Şuşa şəhərini azad etmək böyük qəhrəmanlıq tələb edirdi. Şuşaya gələn hər bir insan bu sıldırım qayalara baxarkən görür ki, bu şəhəri, alınmaz qala sayılan şəhəri götürmək, azad etmək böyük qəhrəmanlıq, peşəkarlıq, şücaət, fədakarlıq tələb edir. Qəhrəman Azərbaycan əsgərləri qan tökərək, şəhid olaraq, sıldırım qayalara dırmaşaraq, demək olar ki, yüngül silahlarla, əliyalın Şuşanı düşmənin əlindən aldı və Azərbaycan bayrağını ucaltdı".
Azərbaycanın bu möhtəşəm qələbəsi Prezident İlham Əliyevin uzun illər ərzində apardığı uğurlu xarici və daxili siyasətlə bərabər, təkrar edirəm, ordu quruculuğu sahəsində fədakar fəaliyyətinin məntiqi nəticəsidi idi. Dövlətimizin başçısı bu barədə işğaldan azad edilmiş Ağdam şəhərində olarkən bildirib ki, bu gün bir çox ölkələrdə bizim hərbi təcrübəmiz öyrənilir. Hazırda bu məsələ ilə məşğul olan bir çox ekspertlər qeyd edirlər ki, Azərbaycan XXI əsrin müharibəsini aparıb. XXI əsrdə ilk dəfə olaraq, bu miqyasda və bu səmərə ilə qısa müddət ərzində tarixi nailiyyətlər əldə edilib.
Azərbaycan Odusunun gücləndirilməsi, döyüş hazırlığının inkişaf etdirilməsi bu gün də diqqətdə saxlanılır. Prezident, Ali Baş Komandan İlham Əliyev də dəfələrlə vurğulayıb ki, silahlı qüvvələrimizin inkişafı, möhkəmləndirilməsi prosesi bundan sonra da davamlı olacaq, ordumuzun dünyanın ən müasir silah və hərbi texnikası ilə təchiz edilməsinə prioritet istiqamət kimi yanaşılacaq. Ordumuz Vətən müharibəsində Ermənistan işğalçılarını ağır məğlubiyyətə uğradaraq torpaqlarımızdan qovsa da, erməni faşizminin nə qədər təhlükəli, məkrli olduğu hər kəsə məlumdur. Bu gün Ermənistan daxilindəki bəzi qüvvələr revanşist

çağırışlarla çıxış edirlər. Bütün bunlar bir daha göstərir ki, Azərbaycan Ordusu hər zaman istənilən təxribatın qarşısını almağa hazır olmalıdır. Ermənistan isə Qarabağdakı rüsvayçı məğlubiyyətindən dərs almalı, nəticə çıxarmalıdır.